bizə **sevgidən** danışın...

Tərcüməçi:
Ağca Qasımova

OSHO

speak to us
of **love**

OSHO

Livan şairi Xəlil Cübranın ən mükəmməl kitabını şərh etməklə sufi-şair Oşo müasir həyatımızın vacib problemlərinə müraciət edir və göstərir ki, bütün nevroz və psixozların səbəbi çox sadədir: bizim qəlbimiz üçün əsas "qidalandırıcı element" – nə sahiblik etmək, nə də nəzarət edilməyə çalışan sevgi çatmır. Ruhumuz üçün həqiqətən qiymətli olan hər şeyi fövqəltəbii qüvvədə yox, adi həyatda tapmaq mümkündür; bunlar ölümdən sonrakı "başqa dünya" barədə fantastik ideyalarda yox, burada və hazırda yaşadığımız dünyadadır.

OSHO speak to us of love
OSHO bizə sevgidən danışın...

Janr: özünüinkişaf
Yaş qrupu: 16+
Ölçü: 130x200
Cild: yumşaq
Səhifə sayı: 240

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Ağca Qasımova
Redaktor: Könül Nəsibova
Korrektor: Flora Əliyeva
Qapaq dizaynı: Rafael Qas;m
Mətn dizaynı: Rahilə Şamil

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-215-2

© Qanun Nəşriyyatı, 2016: 2026
© OSHO International Foundation, 1987, 2013

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

MÜNDƏRİCAT

Ön söz.....6

1 SEVGİ
bizə sevgidən danışın..... 11

2 SEVGİNİN
heç nəyi yoxdur 32

3 NİKAH
qoy yaxınlığınız hədsiz olmasın 48

4 UŞAQLAR
həyatın öz-özü üçün darıxmasıdır 69

5 SƏDƏQƏ
özündən verəndə 97

6 ƏMƏK
əmək gözlə görünən sevgidir 122

7 AZADLIQ
azadlığın dərin mahiyyəti 144

8 AĞIL VƏ EHTİRAS
artıq münaqişə olmadan 173

9 DOSTLUQ
dostluqdan dostcanlılığa 193

10 HƏZZ
müqəddəs toxum 217

ÖN SÖZ

Xəlil Cübran elə saf musiqi, elə müəmmadır ki, bəzən onun fikirlərini yalnız poeziya, şeiriyyət anlaya bilir, lakin yalnız bəzən.

Əsrlər ötüb-keçmiş, dünya neçə-neçə dahilər yetirmişdir, Xəlil Cübran isə özlüyündə bir obyektiv varlığın ən mühüm və ümumi xüsusiyyətlərini ifadə edən elmi məfhum – kateqoriyadır. Hətta gələcəkdə insan qəlbini, bizi əhatə edən naməlum, qeyri-müəyyən aləmi onun qədər dərindən qavraya biləcək kiminsə olacağını düşünə bilmirəm. O, mümkünsüz olan nəyisə mümkün etmişdir. O, insan dilinə naməlum haqqında ən azı bir neçə ifadə gətirə bilmişdir. O, insan dili və şüurunu başqa heç kimin edə bilmədiyi bir səviyyəyə yüksəltmişdir. Xəlil Cübranın vasitəsilə, nə qədər müəmmalı görünsə də, bütün şair və yaradıcı insanlar əl-ələ verib birləşmiş, fikirlərini paylaşmışlar.

Xəlil Cübran insanlara güclü təsir göstərməkdə böyük uğur qazanmağı bacarsa da, bunu reallıq kimi deyil, yalnız tez ötüb-keçən, ani təəssürat kimi qəbul edir. Lakin həqiqətin işartılarını görmək insanı ən yüksək, mütləq zirvəyə aparan ziyarətin başlanğıcıdır.

Xəlil Cübranın fikirlərinə, mülahizələrinə şərh verməzdən əvvəl bir neçə məsələni nəzərə çatdırmaq istərdim. Birincisi, o, sözün əsl mənasında, böyük şairdir, bəlkə də, indiyədək yer üzündə doğulmuşlardan ən dahisidir, amma o, sufi deyil; şair və sufi arasında köklü fərqlər var. Belə ki, şair arabir özünü sufi ilə eyni məkanda görür. Belə nadir anlarda onun üstünə qızılgüllər leysanı yağır. Həmin nadir təsadüflərdə o az qala Qautama Buddadır – amma xatırladıram, mən *az qala* deyirəm. Bu nadir anlar gəldi-gedərdir. O həmin gəldi-gedər anların sahibi deyil. Bu anlar bir növ külək kimi, ətir kimidir – sən xəbər tutanadək uçub gedir.

Şairin dahiliyi ondadır ki, belə anları sözlərdə tutmağı bacarır. Belə anlar sənin də həyatına daxil ola bilər. Onlar mövcudluğun azad bəxşişləridir, yaxud, başqa sözlə desək, bu boşluğun sənin daxilində həyatına, qanına, sümüklərinə, iliyinə çevriləcəyi ana çatmaq üçün içinizdə bir axtarış, bir arzu oyatmağın işartılarıdır. Sən onu nəfəsinə çəkəcəksən; ürəyin onunla vuracaq. Heç vaxt onu itirə bilməyəcəksən, hətta istəsən belə.

Şair bir anlığa sufidir, sufi isə əbədi olaraq şairdir. Lakin bu hər zaman çətin bir sual doğurmuş və onun həllini tapmaq hələ heç kimə müyəssər olmamışdır. Problem zaman-zaman bütün dünyada təkrar qoyulmuşdur: əgər şair yalnız işıltılara nail olur və buna baxmayaraq, bu qədər gözəlliklər, poeziya yaradırsa, – sözlərə toxunan kimi sanki bir an içində canlanır, – bəs niyə sufilər belə səviyyəli poeziya ortaya çıxara bilmirlər? Sutkanın iyirmi dörd saatını – gecə və gündüz belə yaradıcı ab-havada olsalar, onların sözləri bu cür gözəlliyə malik olmur. Hətta Qautama Budda, yaxud İsanın sözləri belə Xəlil Cübran, Nəimi, Rabindranat Taqor kimi insanların kəlamları qarşısında tutqun görünür. Bu, bəlkə də, bir qədər qəribə görünür, çünki yalnız anlara malik olan insanlar belə çox yarada

bilirlər, oyaq, yaxud yuxuda yaratmaq daha asan olan universal şüura malik olanlar isə... Nə baş verir? Niyə onların arasında Xəlil Cübranlar yoxdur? Bu suala heç kim cavab vermədi.

Şəxsi təcrübəmə əsasən deyə bilərəm ki, əgər dilənçi bir qızıl mədəni taparsa, çalıb-oxuyar, rəqs edər, sevincindən az qala dəli olar. Amma bunu dilənçi edər, imperator yox.

Şair hərdənbir imperator olur, amma yalnız hərdənbir – ona görə öz-özlüyündə bunu təbii qəbul edə bilmir. Sufi isə universal şüurla, sadəcə, bir anlığa qovuşmur – o, qovuşuqdur, geriyə yol yoxdur.

O kiçik işartıları sözlərə çevirmək hələ mümkündür, çünki bunlar yalnız damcılardır. Amma sufi okeana çevrilmişdir, ona görə də sükut, dinməzlik onun nəğməsi olur. Bütün sözlər elə gücsüz görünür ki, sanki heç nə onun həyəcanlarını hər hansı məlumat növünə gətirməyə qadir deyil. Okean hədsiz böyükdür və fasiləsiz olaraq onunla bir yerdədir; təbii ki, o, tamamilə uzaqlaşdığını, ayrı düşdüyünü də unudub.

Yaradıcılıq üçün sizin orada olmağınız gərəkdir. Nəğmə oxumaq üçün sizin orada olmağınız gərəkdir. Amma sufi özü nəğməyə çevrilib. Orada olması – onun poeziyasıdır. Siz o poeziyanı çap etmək, onu təsvir etmək gücündə deyilsiniz, sizin gücünüz çatmaz, siz yalnız onu dinləyə bilərsiniz.

Şairlə ünsiyyətə girmək bir, sufi ilə ünsiyyətdə olmaq isə tamamilə başqa məsələdir. Amma şairlərdən başlamaq daha yaxşıdır, çünki hətta damcıları belə özünə cəkməyi, mənimsəməyi bacarmırsınızsa, okean sizlik deyil. Yaxud siz okean üçün deyilsiniz demək daha yaxşı olar. Sizin üçün hətta damcı belə geniş okean görünə bilər, yəni hətta damcını belə okean sana bilərsiniz.

Xəlil Cübran, demək olar, otuz kitabın müəllifidir. Haqqında danışmaq istədiyimiz "Peyğəmbər" onun ilk kitabıdır, qalanları əhəmiyyətsizdir.

Bu, heyrətamiz hadisədir. Bu şəxsə nə olmuşdu? Adıçəkilən kitabı yazarkən o çox gənc idi, iyirmi bir yaşı vardı. Düşünmək olardı ki, bundan sonra onun yaradıcılıq gücü yüksələcək. Elə o da ciddi-cəhdlə çalışmış, bütün həyatı boyu yazıb-yaratmışdı, amma "Peyğəmbər"in gözəlliyinə və həqiqiliyinə heç nə yetə bilməmişdi. Bəlkə də, pəncərə bir də heç vaxt yenidən açılmamışdı.

Şair – təsadüfün iradəsinin sufisidir. Bu, sırf təsadüfdür – sanki mehin əsməsidir, onu çağırmağa gücünüz çatmır. Onun dünyada şöhrət qazanmasına gəldikdə isə, bu kitab dünyanın, demək olar, bütün dillərinə tərcümə edilmişdir, hərçənd daha yaxşı nəyəsə nail olmaq üçün çox səy göstərsə də, çalışsa da, nəhayətdə uğur qazana bilməmişdi. Bədbəxtlikdən, o, sadə bir həqiqəti ona söyləyəcək bir insanla rastlaşa bilmədi: "Peyğəmbər" əsərini yaradarkən sən lazımi qədər səy göstərməmisən, bu *baş verdi*. İndi isə bunu etməyə çalışırsan". Bu baş verdi; bu sizin işiniz, hərəkətiniz deyil. Ola bilsin, bu məsələdə siz, sadəcə, vasitəçi olmusunuz. Nə isə sizə məxsus olmayandır".

Eynilə ananın doğduğu körpə kimi. Yəni uşağı ana tək yarada bilməz, bu işdə ana vasitəçilərdən yalnız biridir. "Peyğəmbər" sizin fəaliyyətinizdən, idrakınızdan, özünüzdən asılı olmayan azsaylı kitablar sırasına aiddir, əksinə, onlar məhz siz olmayanda, siz onların baş verməsinə imkan verəndə, əngəl törətməyəndə mümkündür. Siz elə zəifləmisiniz ki, mane ola bilmirsiniz.

Bu belə nadir kitablardan biridir. Burada siz Xəlil Cübranı tapa bilməzsiniz, kitabın gözəlliyi də elə bundadır. Bununla Xəlil Cübran kainata məhz onun vasitəsilə ax-

mağa icazə verdi; o, sadəcə, vasitədir, keçiddir, fleytaçıya əngəl törətməyən içiboş bambukdur.

Təcrübəmə əsasən deyə bilərəm ki, "Peyğəmbər" kimi kitablar sizin müqəddəs adlandırdığınız kitablardan daha müqəddəsdir. Ona görə ki belə kitablar həqiqi mənada müqəddəsdir, onlar öz ətrafında din yaratmamışdır. Onlar sizə heç bir ayin təbliğ etmir, onlar sizə heç bir intizam vermir, onlar sizə heç bir ehkam vermir. Bu kitablar, sadəcə, burada təsvir edilmiş iztirabların işartılarını görməyinizə imkan verir. Bu iztirabların hamısı yox, yalnız nələrsə, sanki bütövlükdə qızılgülün özü yox, onun bir neçə ləçəyi sözə yata bilir. Bunlar qızılgülün, doğrudan da, mövcud olduğuna yetərli sübutdur. Sizin pəncərəniz açıq olmalıdır ki, küləyin mehi hərdən gülün ləçəklərini gətirə bilsin. Küləyin hüzurunuza gətirdiyi o ləçəklər, doğrudan da, naməlumun dəvətidir. Tanrı sizi uzun bir ziyarətə çağırır... və bu ziyarət baş tutmayana qədər siz mənasız ömür sürəcək, birtəhər acınacaqlı həyat keçirəcək, amma sanki yaşamayacaqsınız. Sizin ürəyiniz heç vaxt gülməyəcək.

Xəlil Cübran əsl adından imtina edərək, uydurma Əlmustafa adını qəbul etmişdir. Bu elə "Peyğəmbər" başlanğıcıdır. Əlmustafa – peyğəmbərdir. Böyük həqiqətlər yalnız nəsihətnamələrdə deyilir.

Osho
Xəlil Cübranın "Peyğəmbər"
əsərinə aid düşüncələr